

*İSMAYIL MƏRCANLI İMANZADƏ*

## Hacı Qaraman

Qəribəm, qəlbimi sızladanda qəm,
Mübarək isminə üz tuturam mən.
Bilənlər bilir ki, türk oğlu, türkəm -
Könül dastanımdır Hacı Qaraman.

Sanmayın dil açan naləm-ahımdır,
Həm şanlı keçmişim, həm sabahımdır.
Məkkəm, Mədinəmdir-qibləgahımdır -
Dinim-imanımdır Hacı Qaraman.

Mərd igidlər məskəni-obam Hacı Qaraman,
Odum, suyum, torpağım-havam Hacı Qaraman.
Görən səsim-avazım gedib sənə çatırmı -
Ocağı yalqız qalan, babam Hacı Qaraman.

Şanlı kitabədir məscidi-damı,
Cəddi-kəraməti dirilik şamı.
Ulu ocağında saflaşır hamı -
Səbrim-gümanımdır Hacı Qaraman.

Ruhu Qarabağda sütunum-tağım,
Hüsnünə heyrandır aranım-dağım.
Çələbi yurdunda ulu torpağım -
Elim-ünvanımdır Hacı Qaraman.

Bir də Cəbrayıla düşəndə yönüm,
Torpaqda sünbülə dönəcək dənim.
İsmayıl deyir ki, əzəldən mənim -
Andım-amanımdır Hacı Qaraman,
Sahib-zamanımdır Hacı Qaraman.

30.07.2019

### TANIDIM

Qarlı-buzlu qışım idi,
Göyərməyən daşım idi.
Dərd köhnə tanışım idi,-
Qarşıma çıxdı,- tanıdım.

Uymadım qazanca, nəfə
Aldılar məni hədəfə.
Ötən anlar bircə dəfə
Üzümə baxdı,- tanıdım.

Söz qoşdum çiçəyə-gülə,
Adım düşdü dildən-dilə.
Yurd həsrətim dönüb selə
Üstümə axdı,- tanıdım.

Qundaqdan, bələkdən keçdim,
Arzudan, diləkdən keçdim.
Üyünüb ələkdən keçdim,-
Vədəni-vaxtı tanıdım.

### O BƏYAZ GECƏ...

O gün yol getmişdik tanış bir izlə,
O gün dil tapmışdıq alovla-közlə.
Sübhədək isindi nəfəsimizlə,-
Dönük bəxtimizin ayaz gecəsi.
Bir sevdalı anlar, bir də biz idik,
Xəlvət bir guşədə ikimiz idik.
Dəli ehtirasla üzbəüz idik,-
Nə qış axşamıydı, nə yaz gecəsi.

Ayrıldıq... təzədən yağdı qar, yağış
Əsdi xəzan yeli, ötüb keçdi qış.
Heç demə ən şirin vüsal çağıymış,-
Bizim ömrümüzün bəyaz gecəsi...

### O VAXTLAR...

Düşüb dalınca arzumun,
Səmtini tapdım ruzumun.
O günlər bəxt ulduzumun,-
Parlayan vaxtları idi.

Ayağımı üzüb yerdən,
Söz əkirdim göylərdə mən.
Şairlik təbimin hərdən,-
Qaynayan vaxtları idi.

Üz-üzə gələndə yadla,
Cəngə çıxırdım inadla.
Onda hələ mənim odla,-
Oynayan vaxtlarım idi.

### BAYATILAR

Balıqçıyam torum yox,
Ocağımda qorum yox.
Yurdum-yuvam dağılıb,
Kəfənim yox, gorum yox.

* * *

Tey dağı, Diri dağı
Sinəmin iri dağı.
Düşmən alıb üstümü,
Duman, gəl bürü dağı.

* * *

Yurd içində girova bax,
Boylan Kirsə, Murova bax.
İçimdə vulkan püskürür,
Çölümdəki qırova bax.

* * *

Var ol, ay Xəzər səni,
Gözlərim gəzər səni.
Qoy dönüm üzərriyə,
Kəsməsin nəzər səni.

* * *

Sevincim hədər oldu,
Bir damla qədər oldu.
Dərd əkib, qəm becərdim,
Qazancım kədər oldu.

* * *

İsmayıl, nar gözəldir,
Quzeydə qar gözəldir,
Sən ki,yaxşı bilirsən
Vəfalı yar gözəldir.

* * *

İsmayıl, pir yaxşıdı,
Arazla Kür yaxşıdı.
Qoy var olsun tanışlar,
Dost elə bir yaxşıdı...

### SÖZ OĞRULARI

Hələ kəsmək olmur axan qanları,
Kim başa çıxardıb bu yamanları?
Nə xoş üzləri var, nə amanları,-
Heç vədə görmədim düz, oğruları.

Yol var ki, ömürdən, gündən uzundu,
Sandım hər ilahi kəlmə azandı.
Özgənin odunu qapıb qızındı,-
Ocaq oğruları, köz oğruları.

Hərdən sevincləri dönsə də yasa,
Çoxları aldandı kor ehtirasa.
Gah zərə uydular, gah da libasa,-
Namus dəllalları, qız oğruları.

Şöhrət düşkünləri uydular vara,
Saflıq da, düzlük də çəkildi dara.
Həmişə üz tutur əyri yollara,-
Cığır oğruları, iz oğruları.

Qəlbi ovlayanda oğrun baxışla,
Yuyulmaz suçları qarla, yağışla.
Üz-üzə qalırlar qanla, qarğışla,-
Yataq hərisləri, göz oğruları.
Qarışıq düşəndə səslər, hənirlər
Tarıma çəkilir simtək sinirlər.
Şairəm deyibən qürrələnirlər,
Təbləri ərəmik söz oğruları.

### OLUR

Üstündən adlasa da qış,
Əzəlkidir çöhrə, baxış.
Səni xəlq edənə alqış,
Hüsnündən doymaqmı olur?

Səninkidir hər toy-düyün,
De, nəyin əskikdir, nəyin?
Hesaba gəlmir çiçəyin,
Gülünü saymaqmı olur?

De varmı sevgi ortağın,
Alov püskürür yatağın.
Dadlıdır dilin, dodağın
Heç belə qaymaqmı olur?

Geciksin qarın, yağışın
Sudan da pakdır baxışın.
Beləcə qalsın naxışın,
Heç sənə qıymaqmı olur?

### DEDİM

Ərşə çəkiləndə yuxum,
Saflıq gəzdim bircə baxım.
Qələmə xış, sözə toxum,
Kağıza torpaqsan,- dedim.

Döndüm naxışa-ilməyə,
Macal tapmadım ölməyə.
Qəlbə yatmayan kəlməyə,
Saralan yarpaqsan,- dedim...

### YAŞADIM

İllər boyu
ovcumda köz,
dilimdə söz
daşıdım.
Yola çıxdım,
ayağımdan dartdı
neçə fəndgir,
neçə naşı.
Qarşımı kəsən
qara daşı
öz gücümlə
aşıdım.
Heç vaxt
girmədim
dondan-dona.
əl uzatdım
bir talesizə,
ürəyim yana-yana.
Hər işdə,-
enişdə, yoxuşda
saflıq gəzdim
bir dadım.
Mən belə ömür sürdüm,
belə yaşadım...

Hər gəlişində bir sirr,
İçimdən yellər əsir.
Yazdım-pozdum nə kəsir,
Nə tam şəklinə düşdün.

Nisgilim yığın-yığın,
Açılmaz qırışığım.
Gördün sönür işığım,
Bir şam şəklinə düşdün.

Nə ulduzsan, nə də ay
Hər qatın gizli bir lay.
Bəlkə bir günya saray,
Ya dam şəklinə düşdün.

Səni gəzməyim əbəs,
İçimdə boğuldu səs.
Mələk idin niyə bəs
Adam şəklinə düşdün?..

### YANDIR MƏKTUBLARIMI

Yandır səndə olan məktublarımı,
Bir azda sözlərin oduna qızın.
Yandır ağlar qalan məktublarımı,
Əritsin əndəki hikkənin buzun.
Yandır tüstülənsin ürəyindəki
"Sevgilim kəlməsi", "gülüm" kəlməsi.
Mən heç, özün bir az rahat ol təki,
Dözərəm, ağlına heç nə gəlməsin.

Elə şəklimi də at o tonqala,
Yandır ürəyimin harayın, səsin.
Nakam sevgimizdən bir ocaq qala,
Əllərin son anda qoy titrəməsin.

Yandır eşqimizdən verməsin nişan,
Yığışdır yollardan baxışlarını.
Yandır hər kəlməmə bir vaxt qarışan
Dumduru su kimi göz yaşlarını.

Yandır məktubları, qoy tüstülənsin
Uzaqdan boylanan o görüş yeri.
Üstümə bir bulud harayı ensin,
Qərq edim sularda xatirələri.

İtən avazımı, susansəsimi
Qat o məktublara əlinlə yandır.
Könlünü oxşasın bir meh əsimi,
Özünə yenə də sən haqq qazandır.

Bilirəm, çat düşməz bir də səbrinə,
Axmaz göz yaşların ta narın-narın.
Mənim sinəmdəki sevgi qəbrinə
Səpələ külünü o məktubların.

### GƏLDİM GÖRÜŞÜNƏ...

Axdı gözlərimdən yaş narın-narın,
Həsrətin qəlbimdə yenə dil açdı.
Gəldim görüşünə... yalqız məzarın
Sənin əvəzindən üstümə qaçdı.

Şəklinə göz dikdim yana-yana mən,
Halıma acıdı burda sükut da.
Bilirəm, çağırsam dinən deyilsən,
Yuxuya getmisən qara tabutda.

Yalandan deyimmi hələ bir az döz,
Daha kəsilibdi hər bərən, bəndin.
İçimdən əsən yel səni üşütməz,
Nə açıq qapın var, nə də pəncərən.

Yanıb külə döndü şirin diləklər,
Nə yerdən qalxırsan, nə səsin gəlir.
Qəbrinin üstündə açan çiçəklər
Titrədi... dedim bəs nəfəsin gəlir...

Zülmətin qırılan səsimi udur,
İstədim avazım ruhuna yetsin.
Göz yaşım bir ovuc qəm toxumudur,
Qoy səpim qəbrinin üstünə, bitsin.

°, 2003

### BAŞ ALIB GEDİRƏM...

Baş alıb gedirəm mən bu şəhərdən,
Döşümə yatmadı burda yol, küçə.
Bəlkə də nə vaxtsa yuxuda hərdən
Gəzib tapacaqsan məni gizlicə.

Burda indən belə qalmağım hədər,
Onsuz da tapmadım gəzdiklərimi.
Gedirəm, gözüm də bir baxım kədər,
Nə fərqi kim tutur, tutsun yerimi...

Halıma yanmadı mənim bu şəhər,
Uğur diləmədi bir işimə də.
Bir vaxt gəlişimə baxdı bir təhər,
Köks ötürən deyil gedişimə də.

Gördüm dönə-dönə boz sifətini,
Boylanmaz dalımca divarı, daşı.
Məndən əsirgəyib məhəbbətini,
Üzümə bozardı hər addım başı.

Acı tüstüsünü uddum eləcə,
Məni isitmədi burda od, ocaq.
Başımın üstəki ulduzlu gecə
Bilirəm mənimçün darıxmayacaq.

Ta çıxıb gedirəm mən bu şəhərdən,
Qoy qalsın özünə işvəsi, nazı.
Gedirəm hardasa axtaram hərdən
Burda itirdiyim çiçəkli yazı.

Gedirəm, gizlicə dolur gözlərim,
Bir istək səbrimi çəkir tarıma.
Yollara sancılıb qalan izlərim